AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)**

**FAKÜLTƏ: İQTİSADİYYAT VƏ İDARƏETMƏ**

**Təsdiq edirəm:**
**"İctimai idarəetmə və sosial innovasiyalar" kafedrasının müdiri i.f.d. dos. E. Q. Məmmədov**

**2025-cü il Protokol №**

# "KEYS MENECMENT" FƏNNİ ÜZRƏ

# İŞÇİ TƏDRİS PROQRAMI

## FƏNN HAQQINDA MƏLUMAT

| | |
|---|---|
| **Fənnin кodu:** | 00467 |
| **Fənnin növü:** | əsas |
| **Tədris ili:** | 2025/2026 |
| **Fənnin tədris semestri:** | payız |
| **Fənnin tədris forması:** | əyani |
| **Tədris dili:** | Azərbaycan |
| **Fakültə:** | İqtisadiyyat və idarəetmə |
| **Qrup:** | |
| **Tədris yükü:** | 60 (30/30) |
| **Kredit sayı:** | 4 (dörd ) |
| **Kafedra:** | «İctimai idarəetmə və sosial innovasiyalar» |

## II. MÜƏLLİM HAQQINDA MƏLUMAT


| | |
|---|---|
| **Fənni tədris edən müəllim:** | **Əliyeva Nərgiz Əmiraslan qızı** |
| **E-mail ünvanı:** | n.aliyeva@unec.edu.az |
| **İş telefonu:** | 012-564-05-37 |

**Tələbələr üçün qəbul vaxtları:** I, II günlər 14.00-17.00-dək

## FƏNNİN TƏSVİRİ

İqtisadiyyat və kadrların idarə edilməsi sahəsində mütəxəssislərin peşə hazırlığında “Keys Menecment” kursu xüsusi yer tutur. Kurs tətbiqi nəzəriyyə və empirik təhlilə əsaslanır.

Müasir dövrdə ənənəvi tədris metodları yaranmış problemləri tam həll edə bilmir. Buna görə də təhsil proqramlarını həyata keçirmək üçün tədris prosesinin sistemli və mürəkkəb xarakterini nəzərə alaraq interaktiv təlim formalarından fəal şəkildə istifadə etmək lazımdır. Keys menecmentinin tədris prosesində tətbiqi hər bir mütəxəssisin şəxsi keyfiyyətlərinə olan tələblərin inkişaf etdirilməsindən və təhsilin formalaşmasında ümumi bir istiqamətin mövcudluğundan irəli gəlir.

Sosial sahədə tətbiq edilən keys menecmenti həm insanların psixoloji, sosial və sağlamlıq problemlərinin həllinə, həm də hər bir insanın qarşılaşdığı sosial sistemin təkmilləşdirilməsinə yönəlmişdir.

Müzakirə olunan mövzular aşağıdakılardır: keys menecmentin mahiyyəti, məqsədi və vəzifələri, keys metodunun mahiyyəti, keys menecment prosesinin mərhələləri, funksiyaları və bu kimi digər mövzular .

## FƏNNİN MƏQSƏDİ VƏ VƏZİFƏLƏRİ

Bu fənn tələbələrə Keys menecment haqqında ümumi məlumat, onun predmeti, səviyyələri, eyni zamanda müxtəlif fəaliyyət sahələrində sosial iş qaydaları və prosesi haqqında məlumat verir.

Keys metodu təlim prosesinin iki əsas komponentini özündə birləşdirir. Bu komponentlər nəzəri biliklərin əldə edilməsi və praktiki bacarıqların inkişafıdır.

Bu metod bu günün tələbəsi və sabahın meneceri olan insanlara təcrübədə düzgün idarəetmə qərarlarını qəbul etmək üsullarını öyrədir.

Tələbələr tərəfindən fənnin mənimsənilməsinin əsas vəzifələrinə aşağıdakılar daxildir:

- Keys metodu gələcək menecerlərdə yaradıcı təfəkkürün inkişaf etdirilməsində, idarəetmə vəziyyətinin düzgün təhlil edilməsində və effektiv idarəetmə qərarları qəbul etmək bacarığının yaranmasında əvəzolunmazdır;
- Bu metod real idarəetmə vəziyyətlərinin müzakirəsi nəticəsində insanda ünsiyyət qurmaq bacarığını inkişaf etdirir və məqsədlərə çatmaqda əzmkarlıq yaradır;
- Bu günün tələbələri və sabahkı menecerlər keys ilə işləmək, vaxtı idarə etmək, vahid düzgün idarəetmə qərarının qəbul prosesini öyrənmək qabiliyyətinə yiyələnirlər;

- Keyslərdə idarəetmə vəziyyətlərinin müxtəlifliyi tələbənin “peşəkar dünyagörüşü” artırır.

**FƏNNİN TƏDRİS METODOLOGİYASI:**

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, şifahi təqdimat, fərdi işləmə, komanda şəklində məsələlərin həlli, kiçik qruplarda iş, işgüzar oyunlar, tapşırıqların yerinə yetirilməsi, xüsusi nümunələrin öyrənilməsi və təhlili, test tapşırıqlarının yerinə yetirilməsi kimi tədris üsullarından istifadə edilir.

Tədris və təlim prosesində yerli və xarici ədəbiyyatlardan, internet resurslarından götürülmüş materialların, nümunələrin və keyslərin müzakirəsinə və həlli yollarının tapılmasına istiqamət verilərək, diqqət ayrılacaq. Biliklərin tətbiqi bacarıqlarını formalaşdırmaq üçün tələbələrə mövzuya aid tapşırıqlar həll edəcəklər.

Yeni mövzunun tədrisindən qabaq tələbələrə tapşırılmış materiallar ilə tanış olunmalıdır.

**ÖYRƏNMƏNİN NƏTİCƏLƏRİ:**

**Bilməlidirlər:**

“Keys Menecmenti” fənninin tədrisi başa çatdıqdan sonra tələbələr aşağıdakı zəruri nəzəri və praktiki biliklərə yiyələnəcəklər:

- Keys metodunun mahiyyətinin nədən ibarət olduğu haqqında;
- Keys menecmentin məqsəd və vəzifələrinin, funksiyalarının nədən ibarət olduğunu;
- Keys menecerlərin rolu və məsuliyyətləri haqqında;
- Müxtəlif sahələrdə spesifik situasiya problemlərinin həllində keys menecment yanaşmaları haqqında: biznes prosesləri, hüquqşünaslıq, tibbi xidmətlərin göstərilməsi, sosial iş və s.;
- Elektron keys menecment sisteminin tətbiqi və xarici ölkələrin təcrübəsində aktual texologiyadan istifadə qaydası haqqında.

**Bacarmalıdırlar:**

- Keys metodu tələbələrdə müstəqilliyin inkişafına kömək edir, təfəkkür, dinləmək və alternativ fikirləri təhlil etmək, öz fikrini əsaslandırılmaq qabiliyyəti formalaşdırır;

- Bu metodu öyrənməklə tələbələr analitik qiymətləndirmə bacarıqlarını təkmilləşdirirlər, komandada işləməyi öyrənirlər, problemin ən rasional həllini tapmaq bacarığına sahib olurlar;
- Bu tədris texnologiyası tələbələrə öz biliklərini real təcrübi faktlər və situasiyalar əsasında sınamağa imkan verir;
- Keys üzərində işləyərkən tələbələr yaranmış vəziyyəti müstəqil şəkildə təhlil etməlidirlər və təhlilin nəticələrinə əsasən gələcək təcrübə üçün faydalı nəticələr çıxararaq, qarşıya qoyulan problemin həllini işləyib hazırlamalıdırlar.

## FƏNNİN MÜHAZİRƏ MÖVZULARI

Fənn 15 mühazirə mövzusundan ibarətdir. 15 mövzunun hər birinə 4 saat (2saat mühazirə və 2 saat seminar-məşğələ olmaqla) vaxt ayrılır.

## FƏNN: Keys menecment /mühazirə mövzuları/

Mövzu 1. Keys menecmentin mahiyyəti,məqsədi və vəzifələri
Mövzu 2. Keys menecmentdə elmi-nəzəri aspektlər
Mövzu 3. Keys metodu: mahiyyəti və xüsusiyyətləri
Mövzu 4. Keys menecment prosesinin mərhələ və səviyyələri.
Mövzu 5. Keys menecerlərin rolu, funksiyaları və məsuliyyətləri
Mövzu 6. Keys menecment bacarıqları və problemin mikro, mezzo və makro səviyyədə həlli.
Mövzu 7. Keys menecment müdaxiləsi və yekun qiymətləndirmənin əlavə komponentləri
Mövzu 8. İlkin tibbi-sosial yardım səviyyəsində keys menecment
Mövzu 9. Ailələrlə, qruplarla və icmalarla sosial işdə keys menecment metodunun tətbiqi
Mövzu 10. Uşaq rifahı sahəsində keys menecment tətbiqi
Mövzu 11. Keys menecment və valideyn himayəsindən kənarda qalmış uşaqlar.
Mövzu 12. Müxtəlif həssas əhali qrupları ilə sosial işdə keys menecment tətbiqi
Mövzu 13. İnteqrasiyalı keys menecment, keys metodunda çətinliklər və vizyonlar
Mövzu 14. Keys menecmentdə layihələrin planlaşdırılması və təhlili
Mövzu 15. Keys menecment sahəsində innovativ texnologiyalar və beynəlxalq təcrübə

## Ədəbiyyat siyahısı

1. Методическое пособие по кейс-менеджменту. (2020) Библиотека ФХД, 59 с. [Электронный ресурс].

2. Artur C.Frankel , Şeldon Gelman,Taleh Bağıyev "Keys menecment" . 2019

3. КЕЙС-МЕНЕДЖМЕНТ В СОЦИАЛЬНОЙ РАБОТЕ НА МЕСТНОМ УРОВНЕ. Детский фонд ООН (ЮНИСЕФ) в Республике Казахстан Астана, 2012 г

4. МЕТОДИЧЕСКОЕ ПОСОБИЕ ПО КЕЙС-МЕНЕДЖМЕНТУ . ПОДГОТОВЛЕНО В РАМКАХ СОВМЕСТНОГО ПРОЕКТА СИБУРА И МБОО «ДЕТСКИЕ ДЕРЕВНИ — SOS» .2020.

5. Кейс-менеджмент и участие детей, находящихся под альтернативной опекой, в процессе принятия решений Т. А. Мелешко  1 Российский комитет «Детские деревни — SOS», 117292, Россия, г. Москва, ул. Кедрова, д. 5, стр. 1, офис 5

6. И. П. Кутянова КЕЙС-МЕНЕДЖМЕНТ В РАБОТЕ С НАРКОЗАВИСИМЫМИ (ЗАВИСИМЫМИ ОТ НАРКОТИКОВ И АЛКОГОЛЯ) Москва Берлин 2020.

7. Бердышев С.Н. Технологии работы с трудными клиентами [Электронный ресурс]/ С.Н. Бердышев— Электрон. текстовые данные.— М.: Дашков и К, Ай Пи Эр Медиа, 2010.— 148

8. Ю. В. Земенцкий, А. Ю. Румянцева СБОРНИК КЕЙС-ЗАДАЧ ДЛЯ ОСВОЕНИЯ НАДПРОФЕССИОНАЛЬНЫХ НАВЫКОВ Учебное пособие для бакалавров. Санкт-Петербург 2021.

## KORREKVİZİTLƏR:

"Keys menecmenti" fənni "Sosial işin nəzəriyyəsi və təcrübəsi", "Sosial siyasət", "Uşaqlar və yeniyetmələrlə sosial iş", "Azərbaycanda sosial təminat sistemi", "Fərdlər, qruplar və ailələrlə sosial iş"; və s. " kimi iqtisadi fənlərlə sıx əlaqəlidir.

## MÖVZULARIN MƏZMUNU VƏ TƏDRİS-TEMATİK BÖLGÜSÜ

## FƏNN MÖVZULARI VƏ MƏQSƏDLƏR

| | Mövzular | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1. | **Keys menecmentin mahiyyəti, məqsədi və vəzifələri** | Bu mövzuda keys menecmentin mahiyyəti,onun məqsəd və vəzifələri, keys menecmentin modelləri haqqında danışılacaq. Mövzuda müraciətçi qruplarının keys menec ment xidmətlərindən yararlanma səviyyəsi də izah olunur. Bundan başqa mövzuda keys menecmen-tin funksiyaları və bu funksiyala-rın kateqoriyaları da açıqlanır. | 1. Методическое пособие по кейс-менеджменту. (2020) Библиотека ФХД, 59 с. [Электронный ресурс].<br>2. ArturC.Frankel,Şeldon Gelman,Taleh Bağıyev "Keys menecment" . 2019 |
| 2. | **Keys menecmentdə elmi- nəzəri aspektlər** | Bu mövzuda əsas məqsəd keys menecmentin spesifik xüsusiyyətlərini araşdırmaq,keys memecmentin prinsiplərini göstərməkdir. Mövzuda keys menecmentin digər elm sahələri ilə və sosial təcrübə növləri ilə əlaqəsi də izah edilir. Bundan başqa mövzuda keys metodunun ənənəvi iş metodlarından üstünlüyü, keyslərin yazılış qaydaları və istifadə formaları da açıqlanır. | 1. МЕТОДИЧЕСКОЕ ПОСОБИЕ ПО КЕЙС-МЕНЕДЖМЕНТУ . ПОДГОТОВЛЕНО В РАМКАХ СОВМЕСТНОГО ПРОЕКТА СИБУРА И МБОО «ДЕТСКИЕ ДЕРЕВНИ — SOS» .2020.<br>2. Горбухов В.А. Основы социального управления [Электронный ресурс]: учебное пособие/ Горбухов В.А.— Электрон. текстовые данные.— М.: Форум, 2010.— 224 с.— Режим доступа: http://www.iprbookshop.ru/1208.— ЭБС «IPRbooks». |
| 3. | **Keys metodu: mahiyyəti və xüsusiyyətləri** | Mövzuda keys metodunun mahiyyəti, quruluşu və mənbələ-ri,metodun konsepsiyası öyrənilir. Bundan başqa mövzuda keys metodunun xüsusiyyətləri açıqlanır, onun dah effektiv həyata keçirilməsi üçün nə edilməli olduğu göstərilir. Mövzuda həmçinin bu metoddan istifadədə verilən tövsiyyələr də yer almışdır. | 1. Анисимова С.А. Управление в социальной работе [Электронный ресурс]: учебник для бакалавров/ Анисимова С.А., Байдарова О.И., Комаров Е.И.— Электрон. текстовые данные.— М.: Дашков и К, 2014.— 300 с.— Режим доступа: http://www.iprbookshop.ru/24826.— ЭБС «IPRbooks»<br>2. Методическое пособие по кейс-менеджменту. (2020) Библиотека ФХД, 59 с. [Электронный ресурс]. |

| | | | |
|---|---|---|---|
| 4. | **Keys menecment prosesinin mərhələ və səviyyələri** | Mövzunun öyrənilməsində məqsəd problemlərin ciddiyyətə görə müəyyənləşdirilməsi, problemə müdaxilə olunması və bu müdaxilə nəticələrinin qiymətləndirilməsi və izlənməsindən ibarətdir. Mövzuda keys menecment prosesindəki addımlar göstərilir və ayrı-ayrılıqda hər birinin açıqlaması verilir. | 1. . Artur C.Frankel , Şeldon Gelman,Taleh Bağıyev "Keys menecment" . 2019<br>2. Сенин, Казаринов: Успешный менеджер: кейс-стадии по принятию решений. Учебно-методическое пособие Издательство: Дело. 2014. |
| 5. | **Keys menecerlərin rolu, funksiyaları və məsuliyyət ləri** | Mövzuda keys menecerlərin rolları haqqında danışılır və hansı rolun nə zaman daxil ediləcəyi göstərilir. Menecerlər tərəfindən göstərilən birbaşa şəxsi dəstək, böhran müdaxiləsi, qısamüddətli müalicə müdaxilələri izah edilir. Ən mühüm keys menecment rollarından biri sayılan müraciətçi müvəkkilliyi açıqlanır və onun keys menecmentdə aparıcı rol oynadığı açıqlanır. Mövzuda xidmət kordinasiyası da izah edilir. | 1. Сенин, Казаринов: Успешный менеджер: кейс-стадии по принятию решений. Учебно-методическое пособие Издательство: Дело. 2014.<br>2. Бердышев С.Н. Технологии работы с трудными клиентами [Электронный ресурс]/ С.Н. Бердышев— Электрон. текстовые данные.— М.: Дашков и К, Ай Пи Эр Медиа, 2010.— 148 |
| 6. | **Keys menecment bacarıqları və problemin mikro, mezzo və makro səviyyədə həlli** | Mövzuda insanlarda informasiya yığma ,dinləmə,refreyminq kimi bacarıqlar izah edilir. Bundan başqa fokuslanma və əlavəetmə bacarığı da açıqlanır. Mövzuda keys menecment bacarıqları ilə yanaşı ixtisaslaşdırılmış təlim bacarıqları da izah edilir. Ayrı-ayrılıqda münasibliyi aydınlaşdırmaq,psixo-sosia qiymətləndirmə,problemi öyrənm metodları,problemin ciddiliyini aydınlaşdırmaq,fərziyyələri inkişa etdirməl və hədəflər qoymaq mövzuda açıqlanır. | **1.** Самыгин П. С., Самыгин С. И., Кротов Д. В. Технологии социальной работы с лицами из групп риска: профилактика девиантного поведения молодежи : Учебное пособие Для СПО. - испр. и доп; 2-е изд.. - Москва: Юрайт, 2020. –<br>**2.** Artur C.Frankel , Şeldon Gelman,Taleh Bağıyev "Keys menecment" . 201 |
| 7. | **Keys menecment müdaxiləsi və** | Mövzuda uğursuzluğa səbəb olan məsələlər açıqlanır və keys m ment fəaliyyətinin qiymətləndirilm | Сенин, Казаринов: Успешный менеджер: кейс-стадии по принятию |

| | | | |
|---|---|---|---|
| | **yekun qiymətləndirmənin əlavə komponentləri.** | izah edilir. Mövzuda həmçinin ke menecment üçün vacib sayılan xü bacarıqlar : müqavilə,danışıq apar qeydiyyata alınma və yekun qiym ləndirmə öyrənilir. Mövzuda keys menecment fəaliyyətinin hansı səb rə görə uğursuzluğa uğradığı göst və daha müvəffəq yolların axtarışı aparılır. | решений. Учебно-методическое пособие Издательство: Дело. 2014.<br><br>Бердышев С.Н. Технологии работы с трудными клиентами [Электронный ресурс]/ С.Н. Бердышев– Электрон. текстовые данные.– М.: Дашков и К, Ай Пи Эр Медиа, 2010.– 148 |
| **8.** | **İlkin tibbi-sosial yardım səviyyəsində keys menecment** | Mövzuda ilkin tibbi-sosial yardım sində keys menecmentin mahiyyət əsas məqsədləri açıqlanır, bu işin ta keçirilməsi üçün cavabdeh olan lər göstərilir. Mövzuda tibbi-sosia sir obyektləri,xüsusi sosial xidmət subyektləri və sosial yönümlü tibb müəssisə və təşkilatları haqqında a ma verilir. Daha sonra ilkin tibbi- yardım sahəsində keys menecmen alqoritmi izah edilir. | Баранов, А. А., Кучма, В. Р., Сухарева, Л. М. Медико-социальные проблемы воспитания подростков : монография. - 2022<br><br>Самыгин С. И., Колесникова Г. И. Психотерапия детей и подростков : практическое пособие. - Ростов-на-Дону: Феникс, 2012 |
| **9.** | **Ailələrlə, qruplarla və icmalarla sosial işdə keys menecment metodunun tətbiqi** | Mövzuda ailələrə sosial dəstəyin s yələri açıqlanır. Burada bir-birind fərqlənən 3 ailə növü göstərilir və rın hər biri üçün uyğun meyarlar edilir. Bu mövzuda ailələrlə,qrup icmalarla sosial işin təşkilində key menecmentin rolu göstərilir. Bund başqa mövzuda gələcək üçün keys menecment modelinin formalaşma haqqında da danışılır. | Artur C.Frankel , Şeldon Gelman,Taleh Bağıyev "Keys menecment" . 2019<br><br>Сенин, Казаринов: Успешный менеджер: кейс-стадии по принятию решений. Учебно-методическое пособие Издательство: Дело. 2014. |
| 10. | **Uşaq rifahı sahəsində keys menecment tətbiqi** | Mövzuda uşağın fiziki və emosional vəziyyətinin müəyyənləşməsində keys menecerlərin məsuliyyəti izah ediləcək. Burada uşaq rifahı qurumlarının fəaliyyət istiqamətləri açıqlanır və uşaqların xüsusi ehtiyaclarına və yaşayış şəraitinə cavab verən fərdi yanaşma açıqlanır. Bu mövzuda həmçinin uşaqların psixo-sosial vəziyyətinin qiymətləndirilməsinin formaları | МЕТОДИЧЕСКОЕ ПОСОБИЕ ПО КЕЙС-МЕНЕДЖМЕНТУ . ПОДГОТОВЛЕНО В РАМКАХ СОВМЕСТНОГО ПРОЕКТА СИБУРА И МБОО «ДЕТСКИЕ ДЕРЕВНИ — SOS» .2020.<br><br>1. Методическое пособие по кейс-менеджменту. (2020) Библиотека ФХД, 59 с. [Электронный ресурс]. |

| | | | |
|---|---|---|---|
| | | və əsas aspektlər də öyrənilir. Mövzuda uşağın tələbat parametrləri, valideyn qayğısı imkanları,uşaqlara zərər verən amillərin əsas kateqoriyaları da öyrənilir. | |
| **11.** | **Keys menecment və valideyn himayəsindən kənarda qalmış uşaqlar.** | Bu mövzuda valideyn himayəsindən kənarda qalmış uşaqlar haqqında danışılır və Uşaq kəndləri / SOS / haqqında geniş məlumat verilir. Mövzuda alternativ qəyyumluğun nə olduğu və valideyn himayəsindən kənarda qalmış uşaqların hansı ailələrə verilə biləcəyi izah edilir. Bu sistemdə uşaq hüquqlarının qorunması üçün vacib sayılan arqumentlər açıqlanır. Bu mövzu daxilində keys menecmentin və yaxud hadisələrin idarə edilməsinin texnologiyası da təhlil edilir. | МЕТОДИЧЕСКОЕ ПОСОБИЕ ПО КЕЙС-МЕНЕДЖМЕНТУ . ПОДГОТОВЛЕНО В РАМКАХ СОВМЕСТНОГО ПРОЕКТА СИБУРА И МБОО «ДЕТСКИЕ ДЕРЕВНИ — SOS» .2020.<br><br>Бердышев С.Н. Технологии работы с трудными клиентами [Электронный ресурс]/ С.Н. Бердышев— Электрон. текстовые данные.— М.: Дашков и К, Ай Пи Эр Медиа, 2010.— 148 |
| **12.** | **Müxtəlif həssas qrupları ilə sosial menecment tətbiqi** | Mövzuda inkişaf geriliyi olan şəxslərlə sosial işə baxılır və uşaq lar üçün keys menecmentin böyük lərlə işdən fərqli olduğu göstərilir. Mövzuda keys menecerlərin inkişaf geriliyi olan insanlarla işləyərkən üzləşdiyi problemlər və onların həll yolları açıqlanır. Bundan başqa tibbi qayğıda keys menecment və xroniki problemlər, psixi sağlamlıq və xroniki xəstəliklər, aludəçilik, geriatriya, cinayət cəzası,evsizlər və digər bu kimi sahələr də mövzuda öyrənilir. | Бердышев С.Н. Технологии работы с трудными клиентами [Электронный ресурс]/ С.Н. Бердышев— Электрон. текстовые данные.— М.: Дашков и К, Ай Пи Эр Медиа, 2010.— 148 |
| **13.** | **İnteqrasiyalı menecment və metodunda çətinli vizyonlar** | Bu mövzuda müraciətçilərlə işdə menecerlərin qarşısına çıxan çətinliklər və inteqrasiyalı keys menecment öyrənilir. Mövzuda keys menecment üçün ən perspektivli tendensiyalardan biri sayılan sosial işçilər üçün təlimlərin təkmilləşdirilməsi | Artur C.Frankel , Şeldon Gelman,Taleh Bağıyev "Keys menecment" . 2019 |

| | | | |
|---|---|---|---|
| | | öyrənilir. Mövzuda işçi- müraciətçi mütənasibliyinin qurulmasında iş yükünün həddi və keys metodunda vizyonlar açıqlanır. | |
| **14.** | **Keys menecmentdə layihələrin planlaşd və təhlili** | Mövzuda keyslərin planlaşdırılmasının ümumi vəzifələri səciyyələnir. Mövzuda həmçinin keyslərdə işlərin bolgü strukturunun yaradılması parametrlər üzrə açıqlanır. Keyslərin idarə olunmasında vaxtın planlaşdırılması da zəruri bir hal kimi mövzuda öyrənilir. | Шмарион Ю. В., Караваева Ю. В., Литвинова С. В. Методология и методы социологического исследования : практикум. - Липецк: Липецкий государственный педагогический университет имени П.П. Семенова-Тян-Шанского, 2017. |
| **15.** | **Keys menecment sahəsində innovativ texnologiyalar və beynəlxalq təcrübə** | Mövzuda elektron keys menecment sisteminin tətbiqinin üstünlükləri və informasiya təminatı sahəsində dünya ölkələrinin təcrübəsi haqqında danışılır . Bununla yanaşı olaraq mövzuda Azərbaycanda əhalinin həssas qruplarına göstərilən sosial xidmətlərlə bağlı müasir əsasda "Elektron keys menecment" sisteminin hazırlanmasından danışılır. | **СОВРЕМЕННЫЕ ТЕХНОЛОГИИ СОЦИАЛЬНОЙ РАБОТЫ** **Учебное пособие.Рекомендовано методическим советом Уральского федерального университета в качестве учебного пособия для студентов вуза, обучающихся по направлению подготовки 39.04.02 «Социальная работа»2019г.** |

## FƏNNİN TƏDRİSİ METODİKASI

Kursda aşağıdakı təlim üsul və formalarından istifadə olunur:

- Mühazirələr
- Seminarlarda problemlərin həlli və müzakirəsi
- Kompyuter laboratoriyalarında müstəqil iş (Excel və STATA proqramlarında ev tapşırıqlarının yerinə yetirilməsi, iqtisadi məlumatlarla işləmək, internetdə tədqiqatların aparılması)
- Ədəbiyyatla müstəqil iş

## FƏNNİN MÜHAZİRƏ MƏTNLƏRİ

Fənn üzrə bütün mühazirə mətnləri, təqdimatlar, müzakirə sualları və tapşırıqlar elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (www.unec.edu.az), müəllimin şəxsi kabinetində yerləşdirilmişdir.

## SEMİNAR-MƏŞĞƏLƏLƏR: HAZIRLIQ VƏ QİYMƏTLƏNDİRMƏ

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxıs hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqlar və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Tələbənin məşğələdəki hər bir cavabı 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal olmaqla) qiymətləndirilir. Semestrin sonunda smestr ərzində tələbənin bütün cavab balları toplanır və tələbənin cavablarının ümumi sayına bölünməklə orta qiymət (bal) hesablanır.

## DƏRSƏ DAVAMİYYƏT

Təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Davamiyyət limiti üzrə yuvarlaqlaşdırma (7,5 q/b - 8 q/b) tətbiq edilmir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir.

## FƏNN ÜZRƏ QİYMƏTLƏNDİRMƏ *(Əyani təhsilalma forması üzrə)*

UNEC-də bakalavriat səviyyəsində təhsilin bütün illəri üzrə fənlərin attestasiyası hər biri 50 bal formalaşdıran cari və aralıq qiymətləndirmə (toplam 100 bal) əsasında həyata keçirilir. Cari qiymətləndirmə bakalavrların bilik və bacarıqlarının semestr ərzində qiymətləndirilməsi, aralıq qiymətləndirmə isə imtahan sessiyası zamanı həyata keçirilən qiymətləndirmədir.

Cari qiymətləndirmə üzrə 50 bal bakalavrların semestr ərzində topladıqları ***aktivlik və ara qiymətləndirmə*** ballarının cəmlənməsi ilə formalaşır. Aktivlik balı hər bir fənn üzrə semestr ərzində maksimal 20 bal ola bilər və bu bal tədrisi mühazirə və seminar dərsləri ilə həyata keçirilən fənlərdə seminar dərslərində alınan ballar əsasında fənlərin tədris növünə uyğun olaraq formalaşır.

Seminar dərslərində və praktik məşğələlərdə qiymətləndirmə 10 ballıq şkala əsasında həyata keçirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə hesaba alınır:

- 10 bal = 5 bal
- 9 bal = 4,5 bal

- 8 bal = 4 bal
- 7 bal = 3, 5 bal
- 6 bal = 3 bal
- 5 bal = 2,5 bal
- 4 bal = 2 bal
- 3 bal = 1,5 bal
- 2 bal = 1 bal
- 1 bal = 0,5 bal

**Qeyd:** fənnin tədris növü mühazirə, seminar və labaratoriya olduğu zaman seminar dərsi üzrə bal nisbəti EDUMAN sistemində 10 bal = 2,5 bal nisbətinə uyğun hesaba alınır:

Seminar dərslərində (qabiliyyət tələb edən fənlər istisna olmaqla) alınan ballar əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir:

$$B = (((b1+b2+b3+...+bn)/s)*m)/10$$

Burada,

B - yekun aktivlik balı;
b - seminar dərslərində alınan müxtəlif ballar;
s - semestr ərzində verilən cavabların sayı;
m - aktivlik balına ayrılan maksimal bal;
10 - bir seminar dərsində toplanan maksimal baldır.

Bakalavrlar semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 balı toplamış olur. Bu halda nəticə sistemdə (((10+10+10+10)/4)*20)/10 = 20 olaraq hesaba alınır.

Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-cı, 7-ci və s. dəfə cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda ümumilikdə 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında bakalavrların cavab verməsi üçün imkan yaradır.

Bakalavrlar semestr ərzində seminar dərsində 4 dəfədən az cavab verdiyi halda çatışmayan cavab sayı sistem tərəfindən “0” bal olmaqla nəzərə alınır. Məsələn, əgər hər hansı təhsilalan bir fənn üzrə semestr ərzində cəmi 2 dəfə seminar dərsində cavab verib və hər dəfə 10 bal aldığı halda onun yekun aktivlik balı hesablanan zaman həmin təhsilalanın nəticəsi (((10+10+0+0)/4)*20)/10 kimi hesablanır. Seminar dərsində ümümiyyətlə balı olmayan tələbənin aktivlik balı isə “0” bal hesab edilir.

Semestr ərzində təhsilalanların hər bir fənn üzrə topladığı nəticə tam olmadığı halda semestrin sonunda sistem tərəfindən adi riyazi qaydada həmin nəticələr yuvarlaqlaşdırılır (məs. 6,5 bal – 7 bal kimi nəzərə alınır).

***Ara qiymətləndirmə.*** Hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada test və ya yazılı üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir və təhsilalanlara həmin dövrə qədər mühazirəsi tamamlanmayan mövzu üzrə test və ya yazılı cavablandırılan sual təqdim edilmir. Fənlər üzrə (alt qrup fənləri də daxil olmaqla) ara qiymətləndirmə tədris prosesi dayandırılmadan bakalavriat səviyyəsində əks dərs növbələrində, magistratura səviyyəsində isə cədvəl üzrə dərs olmayan günlərdə, zərurət yarandığı halda isə şənbə günlərində keçirilir. Şənbə günləri ara qiymətləndirmə ilə əlaqədar əmək fəaliyyəti göstərən əməkdaşlara onların istəklərinə uyğun olaraq ara qiymətləndirmənin keçirildiyi təqvim ayı ərzində əlavə istirahət günü - "əvəzgün" verilir.

Ara qiymətləndirmənin cədvəli bir fənn - bir gün prinsipinə əsaslanmaqla ardıcıl günlər üzrə tərtib olunur və 6-cı tədris həftəsinin sonuna qədər UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən ara qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 30 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 3 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Ara qiymətləndirmə üzrə üzrlü imtahanları (habelə olduğu halda texniki problem yaranmış imtahanlar) 11-ci tədris həftəsi ərzində eyni qaydada ardıcıl günlərdə keçirilir.

Qabiliyyət tələb edən fənlər üzrə ara qiymətləndirmə semestr ərzində yerinə yetirilən və hər biri 5 bal üzərindən qiymətləndirilən 6 fərdi işin (hər ay ərzində 2 iş olmaqla) qiymətləndirilməsi əsasında təmin olunur.

Fənlər üzrə ara qiymətləndirmə onların tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq və ya yazılı üsullardan birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilmir.

Bakalavriat və magistratura səviyyələri üzrə təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir. Qiyabi təhsilalma forması üzrə isə davamiyyət səviyyəsindən asılı olaraq maksimum 10 bal verilir.

***Aralıq qiymətləndirmə.*** Test, yazılı, qarışıq, şifahi və ya qabiliyyət imtahanı üsullarından biri ilə hər semestrin sonunda keçirilən sessiya imtahanıdır. Bu imtahanlarda təhsilalanların qiymətləndirilməsi 50 bal üzərindən hər bir imtahan üsulu üzrə müəyyən edilən qaydada həyata keçirilir.

Aralıq qiymətləndirmə semestr ərzində keçilmiş bütün mövzular üzrə tərtib edilən testlər, yazılı və ya şifahi imtahan sualları (qabiliyyət tələb edən fənlər istisna olmaqla) əsasında həyata keçirilir. Bu qiymətləndirmənin cədvəli imtahanlar arasında minimum 2 gün fasilə verilməklə tərtib olunur. İmtahan cədvəli 13-cü tədris həftəsində UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən aralıq qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 50 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda (qabiliyyət tələb edən fənlər istisna olmaqla) keçirilən aralıq qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 5 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Aralıq qiymətləndirmə üzrə üzrlü imtahanları (texniki problem yaranmış imtahanlar da daxil olmaqla) sessiya bitdikdən sonra eyni qaydada ardıcıl günlər ərzində keçirilir.

Fənlərin tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq bütün imtahanlar universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq, yazılı, şifahi və ya qabiliyyət imtahanı üsullarından birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilir.

***Cari və aralıq qiymətləndirmə.*** Tədrisi mühazirə və seminar dərslərindən ibarət olmaqla həyata keçirilən fənlərdə cari qiymətləndirmə üzrə 50 balın 20 balı aktivlik balı hesabına (10 bal = 5 bal nisbətində seminar dərsində toplanan bal), 30 balı isə ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - test və ya yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşır.

## İMTAHAN VƏ İMTAHANA GƏDƏR TOPLANAN BALLAR ƏSASINDA SEMESTR NƏTİCƏSİNƏ GÖRƏ QİYMƏTLƏNDİRMƏ

| 91-100 bal | əla | A |
|---|---|---|
| 81-90 bal | çox yaxşı | B |
| 71-80 bal | yaxşı | C |
| 61-70 bal | kafi | D |
| 51-60 bal | qənaətbəxş | E |

| | | |
|---|---|---|
| **51 baldan aşağı** | **qeyri-kafi** | **F** |

*QEYD:* İmtahanda minimum 17 bal toplanmasa, imtahana qədər yığılan ballar toplanmayacaq.

**TƏRTİB ETDI:**  **baş müəllim Əliyeva N.Ə.**